

Doğma, canım-varlığım qədər
sevdiyim Azərbaycanım
mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 116 (23.528)

21 iyul 2020-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Şərur Sənaye Məhəlləsi mühüm perspektivlər vəd edir

***Sənaye məhəllələri və parkları davamlı inkişaf sahəsində iqtisadi artımın təmin olunması, sosial bərabərlik və ətraf mühitin qorunmasına nail olunmaqda ən təsirli vasitələr hesab edilir. Belə ərazilər sənayenin inkişafını təşviq etməklə yanaşı, müasir texnologiyaların cəlb olunması ilə innovativ imkanların genişləndirilməsi və yenilikçi konsepsiyaların tətbiqinə şərait yaradır.***



Sənaye parkları strukturlaşdırılmış bir institusional çərçivə, inteqrasiya olunmuş xidmətlər və digər mövcud olmayan fiziki infrastrukturlar təklif edir. Bunlar istənilən ölkədə sənayeləşmə prosesləri üçün əsas çətinliklər yaradan texnoloji və maliyyə imkanlarının məhdudluğuna, eləcə də infrastrukturun zəif qurulması ilə əlaqədar əməliyyat xərclərinin yüksək olmasına və digər maneələrin aradan qaldırılmasına öz töhfəsini verə bilər.

Ölkəmizdə sənaye məhəllələri və parklarının yaradılması son illər ərzində həyata keçirilən iqtisadi islahatların və davamlı inkişaf strategiyasının bir hissəsi olmaqla, sürətli sənayeləşmə siyasətinin və innovativ istehsalın inkişaf etdirilməsi yönündə mühüm addımlar hesab edilir. Yaradılan bu ərazilər ixrac potensialının genişləndirilməsi, iqtisadiyyatın şaxəli inkişafı, qeyri-neft sektorunun daha da canlandırılması və sahibkarlığın genişləndirilməsinə əlavə stimul verməkdədir.

Hazırda ölkəmizdə, ümumilikdə, 15 sənaye parkı və məhəllələri fəaliyyət göstərir. Bu ərazilər yerləşdikləri regionun xammal bazası, işçi qüvvəsi, daxili potensialı, sosial-iqtisadi inkişaf xüsusiyyətlərinə uyğun olaraq fərqli istiqamətlər üzrə ixtisaslaşmışlar. Yerinə yetirilən layihələr həm də maraqlı və müştərək qrupların davamlı olaraq sənaye bölgələrinə səfər etmələrinə və yeni ideyaların həyata keçirilməsinə şərait yaratmaqdadır.

Məlum olduğu kimi, ölkəmizdə aparılan sosial-iqtisadi siyasət həm də regional xarakter daşıyır və bu istiqamətdə regionlara xüsusi diqqət ayrılır, onların inkişafı ilə əlaqədar xeyli sayda Dövlət proqramları qəbul edilir, müvafiq layihələr həyata keçirilir. Muxtar respublikada da aparılan iqtisadi islahatlar ölkəmizdə həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyasına uyğun davam etdirilir. Muxtar respublikada sənayenin inkişaf etdirilməsi, kiçik və orta sahibkarlığın canlandırılması, xidmət müəssisələrinin təşkili, xarici və daxili infrastrukturun qurulması istiqamətində Şərur rayonunda sənaye məhəlləsinin yaradılmasını xüsusi olaraq qeyd etmək lazımdır. Hazırda Şərurda sənaye məhəlləsinin yaradılması qloballaşan dünyada keyfiyyətli və innovativ sənaye mallarına olan tələbatın ödənilməsi, yeni investisiyaların cəlb olunması, kadr hazırlığının müasir tələblərə uyğunlaşdırılması baxımından əhəmiyyətlidir.

Qeyd edək ki, Şərurda sənaye məhəlləsinin formalaşması üçün geniş imkanlar və gələcək perspektivlər mövcuddur. Bu bölgə muxtar respublikanın ərazicə ən böyük rayonlarından olduğu kimi, istehsal və xidmət infrastrukturunun inkişaf etməsi, eləcə də sosial-iqtisadi inkişafın mühüm göstəricilərinə görə də digər rayonları üstələyir. Kənd təsərrüfatı məhsulu istehsalı istiqamətində əhəmiyyətli dərəcədə fərqlənən rayon muxtar respublika bazarlarının yerli məhsullarla təmin edilməsi, ərzaq tələbatının keyfiyyətli mallar hesabına ödənilməsində xüsusi pay sahibidir. Həmçinin rayonda əməksevər və qətiyyətli insanlar hesabına geniş daxili işçi potensialı formalaşıb. Bəzən belə fikirlər səsləndirilir ki, bir bölgənin kənd təsərrüfatı üzrə ixtisaslaşması, sənaye sahələrinin zəif olması gələcəkdə orada sənaye meyillərinin zəif olacağına, əsasən, kənd təsərrüfatının ön planda dayanmasına təəssürat yaradır. Lakin dünya təcrübəsi də göstərir ki, hər hansı bir bölgədə aqrar sektorda təcrübənin olması gələcəkdə orada müəyyən sənaye sahələrinin təşəkkül tapmasını da zəruri edir. Qəbul olunmuş faktdır ki, kənd təsərrüfatı üçün tələb olunan texnika və texnologiya, xüsusi avadanlıqlar məhz sənaye sektorunun məhsuludur. Bu da o deməkdir ki, əgər aqrar təsərrüfat inkişaf etməsə, onda sənaye məhsullarına da ehtiyac olmayacaqdır. Digər tərəfdən sənaye sahələrinin inkişaf etməsi yüksək səviyyəli kadrlar və ixtisaslı işçi qüvvəsinin birgə səyi nəticəsində mümkündür. Bu gün muxtar respublikada kənd təsərrüfatı sahəsində kadr hazırlığı istiqamətində mütəşəkkil işlərin görülməsi, onların bilik və bacarıqlarının artırılması üçün kursların təşkil olunması, savadlı kadr seçimində müasir metodlardan istifadə, gənclərin düzgün istiqamətlərə yönləndirilməsi üçün müvafiq tədbirlərin görülməsi bu sahədə münbit bazanın olmasından xəbər verir. Onu da qeyd etmək lazımdır ki, bir neçə onilliklər öncədən fərqli olaraq bu gün Şərur rayonunda müasir maliyyə xidmətləri təklif edən banklar və kredit təşkilatları fəaliyyət göstərməkdədir ki, bu da bir rayonun sosial-iqtisadi inkişafının daha da sürətləndirilməsi üçün başlıca şərtlərdən hesab olunur. Şərur rayonunda sahibkarlığın inkişafına göstərilən qayğı da ildən-ilə artır, hər il yeni istehsal və emal müəssisələri yaradılır. Bölgə sahibkarları "İxrac ili"ndə daha da əzmkarlıq nümayiş etdirirlər. Cari ilin yanvar-may aylarında 44 milyon 793 min 100 manatlıq sənaye məhsulu istehsal olunub. Bəhs olunan dövrdə kənd təsərrüfatı məhsullarının istehsalında artım dinamikası müşahidə olunub. Belə ki, diri çəkidə 2314,3 ton ət, 14096 ton süd, 11800,2 min ədəd yumurta istehsal edilib. Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə ət istehsalı 2,6 faiz, süd istehsalı 1,7 faiz, yumurta istehsalı 1 faiz artıb. Bütün bunlara paralel olaraq həm də nəqliyyat, informasiya və rabitə xidmətlərinin həcmi, pərakəndə əmtəə dövriyyəsi, orta aylıq əməkhaqqında da yüksəliş qeydə alınmışdır.

Sənaye məhəlləsinin yaradılması sosial-iqtisadi inkişaf üçün təsirli bir vasitə olaraq önəmli imkanların ortaya çıxmasına mühüm töhfələr verəcəkdir. Belə ki, sənaye məhəlləsi istehsal sahəsini inkişaf etdirərək keyfiyyətli xidmətlər və strateji bazarlara yaxın olmaq prinsipi ilə investisiya və texnologiya cəlb etmək üçün vacib bir vasitədir. Belə ki, regional inkişafa töhfə verməklə yeni sərmayə mənbələri ortaya çıxara, iş yeri yarada, inkişafı təşviq etməklə istehsal xərclərini azalda, tullantıları və çirklənməni aradan qaldıra, iqtisadi imkanları artırmaqla şirkətlərin məhsuldarlığını yüksəldə bilər. İnnovativ imkanları dəstəkləməklə sənaye məhəllələri, hökumətin, özəl sektorun, universitetlərin və elmi-tədqiqat institutlarının əməkdaşlıq edə biləcəyi bir yerə çevrilə bilər. Bu isə yeni araşdırmalar aparmaq, ticarəti canlandırmaq və sahibkarlığı gücləndirmək yönündə əlverişli mühiti ortaya qoymaqla yerli məşğulluq mərkəzlərinin yaradılması, habelə nəqliyyat xidmətləri, təhsil və təlim, səhiyyə, poçt, rabitə xidmətləri kimi geniş yerli icma hədəflərinə çatmaq üçün platforma rolunu oynaya bilər. Məhəllədə həyata keçiriləcək pilot layihələr yeni iqtisadi reformların və yanaşmaların sınağı ola bilər. Bu layihələrin nəticəsi uğurlu olarsa, ən yaxşı təcrübələr ümummilli və regional miqyasda hər tərəfə yayıla bilər. Ekoloji təhlükəsizlik tədbirlərinin təşviq olunması ilə sənaye məhəlləsi istehsal xərclərini azaltmaq imkanı ilə yanaşı, materiallardan, su və enerjidən səmərəli istifadə olunması, çirklənmənin qarşısının alınması, tullantıların təkrar emalı üçün də əlavə imkanlar yaradacaqdır.

Yeni layihə Şəruru həm də yeni investisiyaların cəlb edilməsi baxımından cəlbedici edəcəkdir ki, bu da həm bölgə, həm muxtar respublika iqtisadiyyatının gələcəyi üçün çox əhəmiyyətlidir.

**Eltun İBRAHİMOV**
***iqtisad üzrə fəlsəfə doktoru***

## Muxtar respublikada rəqəmsal ödənişlərin tətbiq dairəsi genişlənir

Muxtar respublikada nağdsız hesablaşmaların əhatə dairəsinin genişləndirilməsi istiqamətində 2020-ci ilin ikinci rübündə bir sıra işlər görülüb. Belə ki, 23 vergiödəyicisi üzrə 209 işçinin rekvizitləri bank orqanlarına göndərilib, bunlardan 7 vergiödəyicisi üzrə 97 işçinin əməkhaqlarının plastik kartlara keçirilməsi təmin olunub. Publik hüquqi şəxs statuslu daha 15 müəssisədə ödənişlərin onlayn və POS-terminallar vasitəsilə qəbulu sahəsində görülən işlər yekunlaşıb. Vətəndaşlar Naxçıvan Muxtar Respublika Xəstəxanası, Doğum Mərkəzi, Kardiologiya Mərkəzi, Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanası, Ağciyər Xəstəlikləri Dispanseri, Yoluxucu Xəstəliklər Mərkəzi, Akademik Zərifə Əliyeva adına Naxçıvan Şəhər Poliklinikası, Naxçıvan Şəhər Təcili Tibb Mərkəzi, Darıdağ Arsenli Su Müalicəxanası, Şərur Rayon Uşaq Xəstəxanası, Şərur Rayon Mərkəzi Xəstəxanası və Naxçıvan Dövlət Universitetinin Xəstəxanasına, həmçinin Şahbuz, Ordubad, Babək Rayon Mərkəzi xəstəxanalarına müraciət edən zaman onlara göstərilən xidmətlərin qarşılığını nağdsız qaydada ödəyə bilərlər.

***Naxçıvan Muxtar Respublikası***
***Dövlət Vergi Xidmətinin mətbuat xidməti***

## Şahmat fənnini tədris edən müəllimlərin sertifikasiyası keçirilmişdir



2018-ci il dekabrın 10-da Naxçıvan Muxtar Respublikası Ali Məclisində "Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələr haqqında" keçirilən müşavirədə verilən tapşırıq və tövsiyələrə əsasən muxtar respublikada digər idman növləri kimi, şahmatın da inkişafı, uşaq və yeniyetmələr arasında kütləvi hal alması üçün mühüm tədbirlər həyata keçirilir.

Muxtar respublikada şahmatın tədrisinin keyfiyyətinin yaxşılaşdırılması və müəllimlərin peşəkarlıq səviyyəsinin yoxlanılması məqsədilə 20 iyul 2020-ci il tarixdə şahmat fənnini tədris edən müəllimlərin növbəti ödənişsiz sertifikasiyası keçirilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın Test mərkəzində keçirilən sertifikasiya imtahanında qeydiyyatdan keçmiş 20 müəllim iştirak edib. Test imtahanında iştirakçılara 40 sual təqdim edilib, sualları cavablandırmaq üçün 60 dəqiqə vaxt verilib. Test tapşırıqlarının ən azı 50 faizini düzgün cavablandırmış 18 nəfər müvafiq keçid balını toplayıb.

Şahmat fənni üzrə aparılan test imtahanları elektron proqram təminatı vasitəsilə keçirilib. Bununla da test suallarını cavablandırarkən iştirakçılar seçdikləri cavabları imtahan vaxtı ərzində dəyişə və monitorda imtahanın vaxtını izləyə biliblər. Test imtahanında obyektivliyin və şəffaflığın tam təmin edilməsi məqsədilə videoçəkiliş də aparılıb. İmtahan bitdikdən dərhal sonra iştirakçılara test imtahanının nəticəsinə dair arayış təqdim olunub. Nəticələr Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın rəsmi internet portalında *(www.dqmk.nmr.az)* yerləşdirilib.

İmtahanın təşkili zamanı karantin rejiminin tələblərinə ciddi əməl olunub.

***Naxçıvan Muxtar Respublikası***
***Ali Məclisinin Sədri yanında***
***Dövlət Qulluğu Məsələləri üzrə***
***Komissiyanın mətbuat xidməti***

## Cari ildə Kəngərli rayonunda 6,3 hektar sahədə yaşıllaşdırma tədbirləri aparılıb

Ana təbiətin əsas qoruyucu vasitələrindən biri də yaşıllıqların mühafizəsi və artırılmasıdır. Yaşıllıqlar ekoloji mühitin tarazlığının saxlanılması ilə yanaşı, həm də sağlamlıq mənbəyi rolunu oynayır. Ona görə də Naxçıvan Muxtar Respublikasında bu sahədə həyata keçirilən tədbirlər ekoloji tarazlığın pozulmasının qarşısının alınması, təbii sərvətlərimizin qorunub saxlanması kimi ümumbəşəri əhəmiyyət daşıyır.



Muxtar respublikanın bütün bölgələrində olduğu kimi, Kəngərli rayonunda da yaşıllaşdırma, meşəsalma və meşəbərpa tədbirlərinə xüsusi diqqət yetirilir, bu tədbirlər zamanı uzun müddət istifadə olunmayan torpaq sahələrində yeni meyvə bağları və yaşıllıq sahələri salınır. Ötən dövr ərzində salınan meşə zolaqları, yaşıllıqlar, al-əlvan gülkarlıqlar, yeni meyvə bağları rayonun simasına yeni naxışlar əlavə edir. Əvvəlki illərdə olduğu kimi, 2020-ci ildə də yaşıllaşdırma tədbirləri uğurla davam etdirilməkdədir. Kəngərli Rayon Statistika İdarəsindən verilən məlumata görə, təkcə cari ildə yaşıllaşdırma aylıqları çərçivəsində rayonda 6,3 hektar sahədə meşəsalma və meşəbərpa işləri aparılıb, ümumilikdə, rayonun müxtəlif yerlərində 2 min 900 meyvə, o cümlədən 800 badam, 1300 tut tingi, 300 çinar, 200 meşə ağacı, 1250 həmişəyaşıl ağac, 800 qızılgül kolu əkilib.

Qeyd edək ki, həyata keçirilən yaşıllaşdırma tədbirlərində rayonun dövlət qurumlarının kollektivləri ilə yanaşı, sadə vətəndaşlar da yaxından iştirak ediblər. Bu isə vətəndaş həmrəyliyini ortaya qoymaqla bərabər, insanlarda ekoloji təfəkkürün formalaşmasında, ümumi evimiz olan ana təbiətə qayğı göstərilməsində böyük rol oynayır.

**Babək İSMAYILOV**

# Naxçıvanda Azərbaycan milli mətbuatının yaranmasının 145 illiyi münasibətilə keçirilən yaradıcılıq müsabiqəsinin qalibləri mükafatlandırılıb

*İyulun 20-də “Saat Meydanı” Turistik İstirahət Mərkəzində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun Azərbaycan milli mətbuatının yaranmasının 145 illiyi münasibətilə keçirdiyi yaradıcılıq müsabiqəsinin qaliblərinin mükafatlandırma mərasimi olmuşdur.*



Tədbirin aparıcıları Azərbaycan milli mətbuatının yaranmasından, Naxçıvan Muxtar Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına göstərilən diqqət və qayğıdan danışmışlar.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının rəhbəri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun Müşahidə Şurasının sədri Ülvi Hüseynli çıxış edərək bildirmişdir ki, Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin “Azərbaycan milli mətbuatının 145 illik yubileyinin keçirilməsi haqqında” 2020-ci il 30 iyun tarixli Sərəncamı, eyni zamanda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun Sərəncamı ilə “Azərbaycan milli mətbuatının 145 illik yubileyinin Naxçıvan Muxtar Respublikasında keçirilməsi ilə əlaqədar Tədbirlər Planı”nın təsdiq edilməsi mətbuata göstərilən diqqətin daha bir ifadəsidir.

Qeyd edilib ki, milli mətbuatımızın inkişafı ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Bu gün dahi şəxsiyyətin siyasi kursunu uğurla davam etdirən ölkə Prezidenti cənab İlham Əliyev də mətbuatın inkişafına hərtərəfli qayğı göstərir. Muxtar respublikamızda kütləvi informasiya vasitələrinin müstəqil fəaliyyəti, jurnalistlərin öz iradələrini azad şəkildə ifadə etməsi üçün lazımi şərait vardır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin qayğısı ilə muxtar respublikada yaradılan şərait Naxçıvanda informasiya təhlükəsizliyini təmin etmiş, jurnalistlərin fəaliyyəti üçün geniş imkanlar açılmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun Azərbaycan milli mətbuatının yaranmasının 145 illiyi münasibətilə keçirdiyi yaradıcılıq müsabiqəsi yaradılan şəraitin nəticəsidir.

Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin sədri Sahil Tahirli, “Şərq qapısı” qəzetinin baş redaktoru Mehriban Sultanova, Naxçıvan Mətbuat Şurasının sədri Rövşən Hüseynov, Televiziya və Radio Şurasının sədri Rauf Əliyev çıxış edərək Naxçıvan mətbuatının tarixi inkişaf yoluna nəzər salıb, müstəqillik illərində muxtar respublikada medianın inkişafına göstərilən dövlət qayğısından, informasiya blokadasının yarılması istiqamətində qazanılan uğurlardan danışıblar.

Vurğulanıb ki, muxtar respublikada aparılan məqsədyönlü siyasət nəticəsində kütləvi informasiya vasitələrinin infrastrukturu yenilənib, maddi-texniki təchizatları yüksəldilib, elektron medianın inkişafı, Naxçıvanla bağlı informasiya təbliğatının müxtəlif xarici dillərdə təşkili, Jurnalistika ixtisası üzrə kadr hazırlığı istiqamətində nailiyyətlər əldə olunub. Çıxış edənlər göstərilən qayğıya görə Ali Məclis Sədrinə minnətdarlıq ediblər.

Sonra müsabiqənin qaliblərinin mükafatlandırılması mərhələsi başlamışdır.

Bildirilmişdir ki, müsabiqə “Naxçıvan Muxtar Respublikasının müasir sosial-iqtisadi inkişafının, turizm potensialının, ərzaq, enerji və müdafiə təhlükəsizliyinin təmin olunması sahəsində həyata keçirilən tədbirlərin, tarixi-mədəni irsimizin və milli dəyərlərimizin təbliği” və “Naxçıvan Muxtar Respublikasında informasiya təhlükəsizliyinin təmin olunması və mətbuatın inkişafı sahəsində görülən işlərin təşviq edilməsi” istiqamətləri üzrə keçirilib. Müsabiqəyə muxtar respublikanın kütləvi informasiya vasitələrində çalışan, eləcə də mətbuat xidmətlərinin, ümumilikdə, 48 əməkdaşı tərəfindən 15 teleradio materialı və 42 məqalə olmaqla, ümumilikdə, 57 material və 1 kitab təqdim olunmuş, hər istiqamət üzrə 6 müəllif olmaqla, 12 qalib seçilmişdir.

“Naxçıvan Muxtar Respublikasının müasir sosial-iqtisadi inkişafının, turizm potensialının, ərzaq, enerji və müdafiə təhlükəsizliyinin təmin olunması sahəsində həyata keçirilən tədbirlərin, tarixi-mədəni irsimizin və milli dəyərlərimizin təbliği” istiqaməti üzrə birinci yerin qalibi “Şərq qapısı” qəzetinin baş redaktoru Mehriban Sultanova, ikinci yerin qalibləri “Şərqin səhəri” qəzetinin redaktoru Muxtar Rzazadə, Naxçıvan Dövlət Televiziyasının əməkdaşı Elnarə Heydərova, üçüncü yerin qalibləri Naxçıvan Dövlət Radiosunun redaktoru Türkanə Əmoyeva, “Arazın səsi” qəzetinin redaktoru Alim Ağayev, “Nuhçıxan” İnformasiya Agentliyinin redaktoru Anar Tağıyev, “Naxçıvan Muxtar Respublikasında informasiya təhlükəsizliyinin təmin olunması və mətbuatın inkişafı sahəsində görülən işlərin təşviq edilməsi” istiqaməti üzrə birinci yerin qalibi “Şərq qapısı” qəzetinin baş redaktor müavini Mətanət Məmmədova, ikinci yerin qalibləri Dövlət Miqrasiya Xidmətinin mətbuat və ictimaiyyətlə əlaqələr üzrə baş məsləhətçisi Arif Bayramov, Naxçıvan Dövlət Televiziyasının baş redaktoru Müzəffər Əsgərov, üçüncü yerin qalibləri Naxçıvan Dövlət Televiziyasının baş redaktoru Məmməd Babayev, “Kanal 35” televiziyasının əməkdaşı Seymur Məmmədov, “Şərq qapısı” qəzetinin şöbə müdiri Ramiyə Əkbərova olmuşlar.

Qaliblərə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun diplomu və pul mükafatları təqdim olunmuşdur.

Qaliblərdən “Şərq qapısı” qəzetinin baş redaktor müavini Mətanət Məmmədova mətbuatımızın inkişafına göstərilən diqqət və qayğıya görə dövlətimizə minnətdarlıq etmişdir.

**“Şərq qapısı”**

# Döyüş Şöhrəti Muzeyi Naxçıvanın şərəflə yazılmış hərb tarixinin vizit kartıdır

***Naxçıvanda açıq səma altında iki muzey var. Birində qədim tariximizin daş yaddaşına yazılmış nümunələr, digərində isə bu tarixə sahiblənmək istəyənlərlə mübarizənin gerçək şahidləri olan hərbi texnikalar sərgilənir. Daş yaddaşımızı məhdud bir çərçivəyə sığdırmaq nə qədər çətindirsə, mübarizə əzmimizi də müəyyən bir çərçivədə düşünmək mümkünsüzdür. Bəlkə də buna görədir ki, eksponatları açıq məkanda nümayiş etdirilən bu muzeyləri ziyarət etmək üçün müəyyən bir “qapıdan” keçməyə lüzum yoxdur.***



Naxçıvan şəhərindəki Döyüş Şöhrəti Muzeyi 2018-ci ildə – Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasının 100-cü ildönümü ərəfəsində istifadəyə verilib. Hərbi şəhərciyin ərazisində yaradılmış bu muzey muxtar respublikada mədəniyyət profilli olmayan ilk muzeydir. Muzey bir çox maraqlı tərəfləri ilə seçilir. Məsələn, elə muzeylər var ki, onları dünyanın istənilən ölkəsində yaratmaq mümkündür və belə mədəniyyət müəssisələrinə hər yerdə rast gəlmək olar. Ancaq elə muzeylər də var ki, onların yaradılması üçün ənənəvilik şərtdir. Naxçıvanda yaradılmış Döyüş Şöhrəti Muzeyi də bu ənənəviliyin bariz nümunəsidir.

Qeyd etdiyimiz kimi, bu tipli muzeylərə çox az-az rast gəlmək mümkündür. Adətən, belə muzeylərin təşkil olunduğu ölkələr iki mühüm bazaya əsaslanır və onu təbliğ etməyə çalışır. Birincisi odur ki, ya kütləvi hərbi texnikalar istehsalçısı, ya da daim qürurla xatırlanan hərb tarixi keçmişinə malik olmalısan. Azərbaycan həm birinci, həm də ikinci sənaye inqilablarından sonra böyük hərbi sənaye məhsulları istehsalçısı olmasa da, hərb tarixi kifayət qədər zəngindir. Elə son iki yüz ili götürsək, Azərbaycan həm çar Rusiyası və Xalq Cümhuriyyəti dövrlərində, həm də sonrakı dövrlərdə daim mübarizə şəraitində olub. Çünki ölkəmizin mühüm strateji mövqedə yerləşməsi, yaşayış üçün bütün imkanların əlçatan olması, iqlim xüsusiyyətləri və digər amillər Vətənimizi hər zaman xarici maraqların cəmləşdiyi bir məkana çevirib. Təbii ki, bu maraqlar ölkəmizin əhəmiyyətini göstərməklə yanaşı, zaman-zaman ona sahiblənmək iddialarını da ortaya qoyub. Tarixin bütün dövrlərində xalqımıza, ölkəmizə qarşı yönələn hücumlara hər dəfə layiqli cavablar vermişik. Düşmənlərimizə qarşı bu mübarizələrdə saysız-hesabsız qəhrəmanlarımız öz igidlikləri ilə ad-san qazanıb, şanlı hərb tariximizin unudulmaz səhifələrini yazıblar. Xüsusilə Naxçıvanın mərd oğulları ötən əsrin əvvəllərində torpaqlarımıza göz dikmiş erməni quldurları ilə mübarizədə böyük igidliklər göstərmiş, bütün xarici təsirlərə baxmayaraq, bir qarış torpağı belə, kimsəyə güzəştə getməmişlər. Dünyanı lərzəyə salan, miqyasına görə planetin ən böyük savaşı kimi tarixə düşmüş İkinci Dünya müharibəsində də mərd oğullarımız alman faşizminə qarşı döyüşlərdə fədakarlıqla vuruşmuş, bu yolda canlarını qurban vermişlər. Nəhayət, ötən əsrin sonlarında erməni qəsbkarlarının qədim diyarımıza aramsız hücumlarının qarşısı naxçıvanlıların həmrəyliyi, qəhrəmanlığı sayəsində alınmışdır. Və yaxud götürək Naxçıvanın hərb tarixinə adını böyük hərflərlə yazdırmış qəhrəman oğullarını. Məlumdur ki, Çar Rusiyası dövründən bu günümüzədək naxçıvanlı hərbçilər istər qədim diyarımızın müdafiə olunmasında, istərsə də digər cəbhələrdə öz şücaətləri ilə bu tarixi daha da zənginləşdiriblər. Bunları xatırlatmaqda məqsədimiz odur ki, Naxçıvanda Döyüş Şöhrəti Muzeyinin yaradılması heç də təsadüfi alınmış qərarın nəticəsi deyil.

Bu gün Naxçıvan şəhərindəki hərbi şəhərciyin ərazisində yaradılmış Döyüş Şöhrəti Muzeyində ötən əsrin sonlarında muxtar respublikamızın müdafiəsində istifadə olunmuş onlarla hərbi texnika və qurğular var. Bu silah və qurğular blokadaya salınmış muxtar respublikanın ərazi bütövlüyünün qorunub saxlanılmasında böyük rol oynayıb. Burada nümayiş etdirilən hərbi texnikaların hər birinin yanında məlumat lövhələri qoyulub. Həmin lövhələrdə nümayiş etdirilən texnikaların istehsal ili, istifadə sahələri, texniki xüsusiyyətləri, döyüşlərdə iştirakı haqqında məlumatlar yerləşdirilib. Haubitsa, top və minaatanlar, tanklar, döyüş-nəqliyyat vertolyotu, hava hücumundan müdafiə üzrə döyüş maşınları, mühəndis istehkam xidmətində istifadə edilən texnikalar, habelə müxtəlif hərbi təyinatlı avtomobillərin eyni modellərindən hazırda da bir çox ölkələrin ordularında, eləcə də erməni hərbi birləşmələrində istifadə olunmaqdadır. Lakin ölkəmizin iqtisadi gücünün nəticəsində bu gün ordumuzun arsenalı müasir tələblərə yüksək səviyyədə cavab verən milli və dünyanın aparıcı silah sənayelərinin istehsalı olan hərbi texnikalarla təchiz olunub. Üç il bundan əvvəl Naxçıvanda keçirilən hərbi paradda hər kəs bunu bir daha gördü.

Bir məqamı da vurğulamaq lazımdır ki, bir hərbi texnikanın model olaraq istismar müddəti 30-40 ilə qədər davam edir. Ancaq bu, hərbi sənayedə modifikasiya prosesinin dayanması anlamına gəlmir. Əksinə, hərbi sənaye bahalı investisiya sayıldığından, dünya ölkələrinin bir çoxu öz ordularının modernləşdirilməsinə bəzən 10-15 il vaxt sərf edirlər. Heç uzağa getməyək, bu gün MDB məkanındakı ali hərbi məktəblərdə Hava hücumundan müdafiə ixtisası üzrə təhsil alan kursantlar, hələ də ilkin olaraq qoşunların hava hücumlarından müdafiəsində geniş istifadə olunan “Şilka”, “Osa”, “Kruq” kimi zenit-raket komplekslərini öyrənirlər. Hansı ki belə komplekslərdən ikisi bu gün Naxçıvandakı Döyüş Şöhrəti Muzeyində eksponat olaraq saxlanılır.





Deməli, bu muzey təkcə hərb tariximizin şöhrətini deyil, eyni zamanda ordumuzun müasir gücünü də göstərir. Bu mənada, onu əminliklə deyə bilərik ki, hazırda düşmən ordusunda istifadə olunan bir çox hərbi texnikalar bizdə artıq çoxdan muzey eksponatına çevrilib.

Naxçıvan şəhərindəki Döyüş Şöhrəti Muzeyi maraqlı eksponatları ilə bu gün böyükdən-kiçiyə hər kəsin diqqətini çəkir. Açıq Səma Altındakı Muzeydə hərbi texnikalara uşaqlar daha maraqla baxır. Çünki uşaqlar üçün həqiqi döyüş texnikalarına yaxından baxmaq cizgi filmlərindən, kompüter oyunlarından daha maraqlıdır. Xüsusilə buradakı tank, təyyarə və vertolyotlara maraq göstərənlər daha çoxdur. Bu texnikaların fonunda fotoşəkil çəkdirmək isə uşaqlar üçün ən gözəl xatirədir. Muzey həm də uşaqlarda ilkin vətənpərvərlik hisslərinin formalaşmasına şərait yaradır. Kim bilir, yəqin ki, bu uşaqlar arasında gələcəyin adlı-sanlı hərbçiləri də yetişəcək.

Bu yaxınlarda isə muzeydəki eksponatların sırasına 3 yeni aviasiya texnikası da daxil edilib. Beləliklə, 26 adda eksponatla fəaliyyətə başlayan muzeydə silah və texnika nümunələrinin sayı artırılaraq 40-a çatdırılıb. Yeni eksponatlardan 2 təlim təyyarəsi gənc pilotların hazırlanmasında istifadə olunub, döyüş-nəqliyyat vertolyotu isə Birinci Qarabağ Müharibəsində şərəfli döyüş yolu keçib. Buradakı “Mİ-24V” döyüş-nəqliyyat vertolyotundan döyüş əməliyyatları zamanı avtomobil karvanlarının və nəqliyyat helikopterlərinin müşahidəsi, düşmənin atəş vasitələrinin dəf edilməsi üçün istifadə edilib. Təknəfərlik “YAK-50” idman-aerobatik təlim və ikinəfərlik “YAK-52” idman-aerobatik təlim-məşq təyyarələrinin isə hazırda Azərbaycan Ordusunun sıralarında xidmət edən pilotların peşəkarlıqlarının artırılmasında böyük rolu olub.

Bəli, Döyüş Şöhrəti Muzeyi uşaq, yeniyetmə və gənclərin hərbi-vətənpərvərlik tərbiyəsinə mühüm təsir göstərən bir müəssisədir. Muzeydəki texnikaların hər biri Silahlı Qüvvələrimizin tərkibində layiqincə “xidmət edib”. Və bu xidmət hazırda da davam edir, eksponatlar gənc nəsli daha vətənpərvər olmağa, torpaqlarımıza göz dikmiş düşmənlərə layiqincə cavab verməyə səsləyir.

✍ **Səbuhi HƏSƏNOV**

***Bu gün muxtar respublika bütün sahələrdə sistemli şəkildə islahatların həyata keçirilməsi nəticəsində dinamik inkişaf dövrünü yaşayır. Qazanılan uğurların təməlində dayanan əsas faktorlardan biri isə qəbul olunan Dövlət proqramlarının uğurlu icrasıdır. Bu, muxtar respublikada digər sahələr kimi, təhsilin inkişafına da öz müsbət təsirini göstərmişdir.***

*Dövlət proqramı icra olunur*

# Məqsədyönlü dövlət siyasətinin həyata keçirilməsi ötən tədris ilində də diqqətdə saxlanılmışdır

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı”nın icrası sağlamlıq imkanları məhdud uşaqların təhsilinin lazımi səviyyədə təşkil edilməsinə və onlarda informasiya kommunikasiya texnologiyalarından istifadə bacarıqlarının formalaşmasına, həmçinin bu kateqoriyadan olan uşaqların istedadlarının üzə çıxarılmasına, intellektual və mənəvi inkişafına, asudə vaxtlarının düzgün təşkilinə geniş imkanlar açmışdır.

Dövlət proqramının icrası məqsədilə 2019-2020-ci tədris ilində Naxçıvan şəhəri üzrə 315, Şərur rayonu üzrə 185, Babək rayonu üzrə 204, Ordubad rayonu üzrə 86, Culfa rayonu üzrə 103, Kəngərli rayonu üzrə 63, Şahbuz rayonu üzrə 61, Sədərək rayonu üzrə 48 nəfər olmaqla, ümumilikdə, 1065 sağlamlıq imkanları məhdud uşaq ümumtəhsil məktəblərinin müvafiq siniflərində təhsilə cəlb edilmişdir. Bununla yanaşı, tədris ili ərzində sağlamlıq imkanları məhdud uşaqlardan 126-sı məktəbdənkənar müəssisələrin dərnəklərinə, 174-ü muxtar respublikada fəaliyyət göstərən idman məktəblərinə, 61-i isə şahmat məktəblərinə cəlb olunmuşdur.





Bu kateqoriyadan olan uşaqların “Evdə qal, yaradıcılıqdan qalma!” devizi altında videoçarx hazırlanmasında, keçirilən onlayn tədbirlərdə, şeir, inşa yazı, rəsm müsabiqələrində iştirakı, muzeylərə virtual ekskursiyaları təmin edilmiş, eyni zamanda onların muxtar respublikanın muzeyləri, Ekoloji Tərbiyə, Şahmat mərkəzləri və AMEA Naxçıvan Bölməsi ilə qurulan interaktiv dərsləri izləyə bilmələri üçün də şərait yaradılmışdır.

Həmçinin Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının təşkil etdiyi onlayn yay dərslərində, iyunun 15-də “Açıq havada şahmat birinciliyi” adlı yarışda, “Abituriyent – 2020 buraxılış və qəbul imtahanları, ixtisas seçimi” mövzusunda keçirilən maarifləndirici tədbirdə bu kateqoriyadan olan uşaqların da iştirakı təmin olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 14 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş “2020-2025-ci illər üçün Naxçıvan Muxtar Respublikasında idmanın inkişafına dair Dövlət Proqramı”nın icrası diqqətdə saxlanılmış, idmanın kütləviliyinin artırılmasında idmançıların rəğbətləndirilməsinin əhəmiyyəti nəzərə alınaraq 3 mart 2020-ci il tarixdə Təhsil Nazirliyi Gənclər və İdman Nazirliyi ilə birlikdə ölkə və beynəlxalq səviyyəli idman yarışlarında fərqlənən şagirdlərin və onların müəllimlərinin mükafatlandırılması ilə bağlı tədbir keçirmiş, tədbirdə 2019-cu ildə ölkə və beynəlxalq səviyyəli yarışlarda 21 nəfəri I, 9 nəfəri II, 19 nəfəri isə III yerin qalibi olan, ümumilikdə, 49 şagird və onların müəllimlərinə diplom və hədiyyələr təqdim edilmişdir. Bununla yanaşı, şəhər və rayon Təhsil şöbələri və İdman idarələri tərəfindən ötən müddət ərzində şahmat, stolüstü tennis, yüngül atletika, futbol üzrə yarışlar keçirilmiş, pandemiya ilə əlaqədar tədris prosesində müvəqqəti fasilə yaranmasına baxmayaraq, Naxçıvan Şəhər Şahmat Mərkəzi tərəfindən məktəblilər arasında onlayn şahmat yarışları, 1 iyun 2020-ci il tarixdən isə onlayn şahmat yay dərslərinə start verilmişdir.

Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərən bütün təhsil müəssisələrində idman klublarının yaradılması və idmanın müxtəlif sahələri üzrə şagirdlərin idmana cəlb edilməsi ilə bağlı şəhər və rayon təhsil şöbələri müdirlərinin, Uşaq-Gənclər İdman məktəbləri direktorlarının iştirakı ilə kollegiya iclası keçirilmiş, kadr potensialı və mövcud şərait nəzərə alınaraq təhsil müəssisələrində yaradılacaq idman klubları müəyyənləşdirilmiş, bu istiqamətdə hazırlıq işlərinin icrası ilə bağlı təhsil müəssisələrinin rəhbərlərinə müvafiq tapşırıqlar verilmişdir.

Təhsil Nazirliyi tərəfindən ümumtəhsil məktəblərində fiziki tərbiyə dərslərinin yüksək səviyyədə tədrisi diqqətdə saxlanılmış, ümumtəhsil məktəblərində işləyən fiziki tərbiyə müəllimlərinin peşə hazırlığının təkmilləşdirilməsi məqsədilə Naxçıvan Dövlət Universitetində onlara müvafiq kursların təşkili planlaşdırılmışdır. Ötən dərs ilindən etibarən tədrisin ixtisaslı müəllimlər tərəfindən aparılmasının təmin edilməsi məqsədilə bu günədək 23 gənc kadr Fiziki tərbiyə ixtisası üzrə işlə təmin edilmiş, növbəti tədris ili üçün isə həmin ixtisas üzrə 16 vakant yer müəyyənləşdirilərək müsabiqəyə çıxarılmışdır. Həmçinin fiziki tərbiyə müəllimləri ilə yanaşı, ümumtəhsil məktəblərində gənclərin çağırışaqədərki hazırlığı fənnini tədris edən hərbi rəhbərlərin də peşəkarlıq səviyyəsinin yüksəldilməsi diqqətdə saxlanılmış, Əlahiddə Ümumqoşun Ordunun 21 yanvar-1 aprel 2020-ci il tarixlərdə keçirdiyi zabit hazırlığı kursuna 6 hərbi rəhbər cəlb edilmiş, kursu uğurla başa vuranlar leytenant hərbi rütbəsi almışlar.

Muxtar respublikamızda iqtisadiyyatın sürətli inkişafı, əhalinin yeni xidmət sahələrinə olan tələbatın artması yeni yaranan iaşə və xidmət sahələrində peşəkar kadrlara olan ehtiyacın ödənilməsini tələb edir. “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı”nın icrası ilə bağlı Təhsil Nazirliyi tərəfindən xidmət sahələrində yaranan işçi tələbatının ödənilməsi məqsədilə muxtar respublikamızda ehtiyac olan yeni ixtisasların açılması və peşəkar kadrların yetişdirilməsi daim diqqətdə saxlanılmışdır. Belə ki, Naxçıvan Şəhər Peşə Liseyi, Şərur və Ordubad Texniki Peşə və Sürücülük məktəblərində turizm agenti, aşpaz, bərbər, bərbər-manikürçü, dərzi, xalçaçı, toxucu, arıçı, çörək və qənnadı məmulatları ustası, traktorçu-maşinist, qazanxana maşinisti, qaynaqçı, rabitə montyoru, qaz çilingəri, elektrik montyoru və gözətçi kimi ixtisaslara üstünlük verilərək peşə kurslarının davamlı təşkili həyata keçirilmişdir. Təhsil Nazirliyinə tabe olan peşə təhsili müəssisələrində sürücü (“B”, “BC”, “D” kateqoriyaları üzrə), gözətçi, bərbər, qazanxana maşinisti, bərbər-manikürçü, dərzi, arıçı, kompüter istifadəçisi və xalçaçı ixtisasları üzrə, ümumilikdə, əmək bazarının tələblərinə uyğun olan 11 adda peşə-ixtisas kursları üzrə kadr hazırlığı həyata keçirilmiş, bu kurslarda istehsalat təcrübəsi keçmiş və kursu müvəffəqiyyətlə başa vurmuş 88 qrup üzrə 2202 müdavim sertifikat almışdır ki, onların da 46 qrup üzrə 1296 nəfəri sürücü, 42 qrup üzrə 906 nəfəri isə qeyd olunan digər peşə kursları olmuşdur.



Ümumtəhsil məktəblərinin yuxarı sinif şagirdlərinə əmək bazarına uyğun peşə və ixtisaslar haqqında məlumat vermək məqsədilə cari tədris ilində də muxtar respublikanın uşaq və gəncləri arasında peşə ixtisaslarına marağın artırılması və onların peşə seçiminə köməklik məqsədilə qrafikə əsasən məşğələlər həyata keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 9 aprel tarixli Sərəncamı ilə təsdiq olunmuş “Naxçıvan Muxtar Respublikasında xalça sənətinin qorunması və inkişaf etdirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı”nın icrası ilə əlaqədar Naxçıvan Şəhər Peşə Liseyində, Şərur və Ordubad Texniki Peşə və Sürücülük məktəblərində xalçaçı kursları fəaliyyətə başlamış, həmin kurslara, ümumilikdə, 46 müdavim cəlb olunmuş, onlardan 43-ü kursu müvəffəqiyyətlə başa vuraraq sertifikat almışdır.

Hazırda isə bütün peşə məktəblərində xalçaçı kursuna müraciət edən vətəndaşların qeydiyyatı aparılır. Bununla yanaşı, ümumtəhsil məktəblərinin şagirdlərinə də xalçaçılığın sirlərinin öyrədilməsi diqqətdə saxlanılır. Tədris ili ərzində Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində və Şərur Rayon Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində “Xalçaçılıq” dərnəyi yaradılmışdır.

Eyni zamanda Təhsil Nazirliyi Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 31 yanvar tarixli Sərəncamı ilə təsdiq olunmuş “2018-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında turizmin inkişafına dair Dövlət Proqramı”nın icrası ilə bağlı tədbirləri də həyata keçirmiş, Naxçıvan Şəhər Peşə Liseyində və Ordubad Texniki Peşə və Sürücülük Məktəbində turizm agenti kursuna 32 müdavim cəlb olunmuş, onlardan 21-i kursu müvəffəqiyyətlə başa vuraraq sertifikat almışdır. Kursa müraciət edən vətəndaşların qeydiyyatı aparılır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 9 oktyabr tarixli Sərəncamı ilə təsdiq olunmuş “Naxçıvan Muxtar Respublikasında uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı”nın icrası ilə bağlı Təhsil Nazirliyi tərəfindən təhsil müəssisələrində təhsilalanlar arasında dispanserizasiyanın mahiyyəti barədə maarifləndirmə işi aparılmışdır. Bununla yanaşı, tədris ili ərzində şagirdlər Səhiyyə Nazirliyinin əməkdaşları tərəfindən dispanserizasiya olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 6 avqust tarixli Sərəncamı ilə təsdiq olunmuş “Naxçıvan Muxtar Respublikasında narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı”nın icrası ilə əlaqədar şəhər və rayonlarda uşaqların, yeniyetmə və gənclərin asudə vaxtlarının səmərəli təşkilinə xidmət göstərən məktəbdənkənar tərbiyə müəssisələrinin fəaliyyətinin inkişaf etdirilməsi, bu sahədə çalışan mütəxəssis və əməkdaşların bilik və bacarıqlarının, peşəkarlıq səviyyələrinin artırılması istiqamətində bir sıra işlər görülmüşdür. Belə ki, Uşaq-Gənclər İdman məktəbləri tərəfindən 2019-2020-ci tədris ili ərzində idmanın müxtəlif növlər üzrə, ümumilikdə, 240, Uşaq-Gənclər Şahmat məktəbləri tərəfindən isə müxtəlif səviyyələrdə, ümumilikdə, 215 tədbir həyata keçirilmişdir. Bunlarla yanaşı, muxtar respublikada fəaliyyət göstərən Uşaq-Gənclər Yaradıcılıq, Ekoloji Tərbiyə, Texniki Yaradıcılıq və Turist-Diyarşünaslıq mərkəzləri tərəfindən 137 rəsm və əl işlərindən ibarət sərgi, 65 şeir müsabiqəsi, 5 bilik yarışması, o cümlədən uşaqların asudə vaxtlarının səmərəli keçirilməsi məqsədilə 229 ekskursiya təşkil olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərən 36 məktəbdənkənar tərbiyə müəssisəsində uşaq və yeniyetmələrin, gənclərin asudə vaxtlarının səmərəli təşkili, onların istedad və bacarıqlarının üzə çıxarılması məqsədilə müxtəlif profilli innovativ dərnəklər təşkil edilmiş, şagirdlərin həmin dərnəklərə cəlbi diqqətdə saxlanılmışdır.

*Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi tərəfindən Dövlət proqramlarının icrası bundan sonra da yüksək səviyyədə yerinə yetiriləcək.*

**Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti**

## Beynəlxalq Şahmat Günü münasibətilə tədbirlər keçirilib



Dünən Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi və Şahmat Federasiyasının birgə təşkilatçılığı ilə Naxçıvan Şəhər Şahmat Mərkəzində ümumtəhsil məktəblərində şahmat fənnini tədris edən müəllimlərə 20 iyul – Beynəlxalq Şahmat Günü münasibətilə onlayn ustad dərsi keçilib. Dərsi beynəlxalq dərəcəli idman ustası, Əməkdar məşqçi Fikrət Sidiefzadə aparıb. Dərsin keçilməsində məqsəd şahmat fənnini tədris edən müəllimlərin təcrübələrini zənginləşdirmək və onların işlərini düzgün qurub, istedadlı uşaqları üzə çıxarmalarına dair lazımi məsləhətlər vermək idi.

Qeyd edək ki, dərsdə Naxçıvan şəhəri üzrə 28, Şərur rayonu üzrə 5, Babək rayonu üzrə 5, Ordubad rayonu üzrə 5, Culfa rayonu üzrə 5, Kəngərli rayonu üzrə 5, Şahbuz rayonu üzrə 5, Sədərək rayonu üzrə 5 olmaqla, ümumilikdə, 63 şahmat müəllimi iştirak edib.

Sonra ümumtəhsil məktəblərində şahmat fənnini tədris edən müəllimlərlə şahmatın oyunları təhlil olunub, onları maraqlandıran suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

* * *



Kəngərli rayonunda bu münasibətlə keçirilən şahmat birinciliyi 12 yaşadək oğlan və qız şahmatçıları arasında İsveçrə sistemi üzrə təşkil edilib.

Culfa Rayon Uşaq-Gənclər Şahmat Məktəbində təşkil olunan Tempo turnirində 18 zəka sahibi mübarizə aparıb. Şahmat Federasiyasının rayon bölməsi, Təhsil Şöbəsi, Gənclər və İdman İdarəsi, Yeni Azərbaycan Partiyası Culfa Rayon Təşkilatının Gənclər Birliyinin təşkilatçılığı ilə keçirilən yarışın qalibi 5 xalla Əli Qulamzadə (1435) olub.

Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının Şərur Rayon bölməsi və rayon Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə Şərur və Kəngərli rayonlarının şahmatçıları arasında Tempo turniri keçirilib. Müəyyən edilmiş yaş qrupları üzrə təşkil olunan yarışda oğlanlar arasında Ayxan Əliyev, Fərid Məmmədli, Azad Xəlilov, Elmin Yusifli, qızlar arasında isə Xatun Nəcəfova və Sara Rzayeva qalib adını qazanıblar.

Babək rayonunda təşkil olunan Tempo turnirində 30 nəfər iştirak edib. Bütün rəqiblərini üstələyən Əli Əliyev turnirin qalibi olub.

Naxçıvan Şahmat Mərkəzində iki gün davam edən açıq birinciliyə yekun vurulub. Nəticəyə əsasən Toğrul Həsənzadə qalib adını qazanıb.

Qeyd edək ki, turnirin sonunda şahmatçıların reytinqləri FİDE-də qeydiyyata alınmaqla yanaşı, qaliblər pul mükafatları ilə təltif olunublar.

Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyası tərəfindən muxtar respublikanı əhatə edəcək onlayn yay dərsləri də davam etməkdir.

✍ **Ceyhun MƏMMƏDOV**

*Azərbaycan milli mətbuatı – 145*

# Bu günümüzün salnaməçiləri yaratdıqları yazılarla tariximizi gələcəyə daşıyanlardır

*Azərbaycan milli mətbuatının 145 illik yubileyinin dövlət səviyyəsində əlamətdar tarixi gün kimi qeyd olunduğu bir ərəfədə biz də jurnalistikanın şərəfli və məsuliyyətli bir sənət olduğunu bütün ciddiyyəti ilə dərk edən, öz peşəsinə ürəkdən bağlanan jurnalist həmkarlarımızla həmsöhbət olduq.*

***“Şərurun səsi” qəzetinin redaktoru Elman Məmmədov*** ömrünün 8-ci onilliyinə qədəm qoyub. 1969-1974-cü illərdə Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsində təhsil alıb.



– 50 ildir, qəzetdəyəm. Bu illəri üç mərhələyə bölmək olar. Birinci dövr sovet dönəmidir. O illərdə işləyə-işləyə ali təhsil almışam. Azərbaycanın milli mətbuat tarixində xüsusi yeri, dəstxəti olan onlarca jurnalistlə yolyoldaşı olmuşam, onlardan çox şey öyrənmişəm.

İkinci dövr 1988-1993-cü illərdə olan hərc-mərclik, mənəm-mənəmlik dövrüdür. Bu qarışıq illərdən də baş çıxara bildik, mənəvi borcumuzu və vəzifəmizi yerinə yetirməyə, reallıqları obyektiv şəkildə təqdim etməyə çalışdıq. Üçüncü dövr 1995-ci ildən sonrakı zaman kəsiyidir. Bu yolda muxtar respublika Ali Məclisinin Sədri cənab Vasif Talıbovun diqqət və qayğısını çox görmüşük, bu gün də həmin qayğıların əhatəsindəyik.

“Şərq qapısı” ilə bərabər, şəhər və rayon qəzetlərini də nəşr edən “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyinin tamamilə yenidən qurulması, hər il daha müasir çap avadanlıqları ilə təmin edilməsi, qəzetlərin maddi-texniki təminatının yaxşılaşdırılması, jurnalistlərin əməyinin qiymətləndirilməsi, qəzetlərə ayrılan maliyyə yardımları dediklərimin əyani təsdiqidir. Ümumiyyətlə, bu gün muxtar respublikamız digər sahələrdə olduğu kimi, mətbuata göstərilən qayğıya, jurnalistikaya və jurnalist əməyinə, azad sözə, azad fikrə verilən yüksək dəyərə görə nümunə gücündədir. “Şərurun səsi” qəzetinin kollektivi də Ali Məclis Sədrinin tövsiyələrinə uyğun olaraq ictimai proseslərin önündə getmək, ictimai şüuru istiqamətləndirmək, tariximizi gələcəyə daşımaq ənənəsinə sadiq qalacaqdır.

***Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin Müəllif proqramları və xüsusi layihələr redaksiyasının baş redaktoru Ruhiyyə Rəsulova****da* jurnalistikaya maraq, sevgi uşaqlıqdan yaranıb. Azərbaycan dili və ədəbiyyatı ixtisasını bitirməsinə, 10 ilə yaxın müddətdə müəllim kimi çalışmasına baxmayaraq, mətbuata, televiziyaya könüldən bağlanıb:




– Ən böyük istəyim atamın sənətini davam etdirmək, Rəsulov imzasını yaşatmaq idisə, əsas məqsədim bu sahədəki fəaliyyətimlə doğma Naxçıvanımızı qarış-qarış gəzib tanımaq və onu təbliğ etmək idi. 2003-cü ildən “Şərq qapısı”, “Nuh yurdu” qəzetləri, eləcə də ölkənin mərkəzi mətbuat orqanları ilə əməkdaşlıq etdim. Müxtəlif illərdə “Səs” qəzetinin Naxçıvan üzrə bölgə müxbiri, “Naxçıvanın səsi” və Naxçıvan Dövlət Radiosunda işlədim. O vaxtdan bəri jurnalistika həyatımın ayrılmaz hissəsinə çevrilib. Daha sonra Naxçıvan Dövlət Televiziya və Radiosunda redaktor kimi fəaliyyət göstərdim, hazırda televiziyanın Müəllif proqramları və xüsusi layihələr redaksiyasının baş redaktoru vəzifəsində çalışıram. Onu da deyim ki, “Şərq qapısı” qəzetində qazandığım təcrübə sonrakı fəaliyyətim üçün əsas olub. Bu gün də doğma qəzetdə müxtəlif məqalələrlə çıxış edirəm. Həmçinin “Nuhçıxan” İnformasiya Agentliyində köşə yazarı kimi fəaliyyət göstərir, mərkəzi mətbuat və informasiya saytları ilə əməkdaşlıq edirəm. Naxçıvan televiziyasında biz jurnalistlər üçün yaradılan şərait cari verilişlərlə yanaşı, yeni layihələrlə çıxış etməyimizə, araşdırma tələb edən sənədli filmlərin ərsəyə gəlməsinə geniş imkanlar açır. Tamaşaçılara təqdim olunan maraqlı tarixi-sənədli filmlərin, “Günün sözü”, “İcmal” və digər studiya verilişlərinin müəllifiyəm. Televiziya fəaliyyətim dövründə mənim üçün ən yaddaqalan məqam 2018-ci ildə Naxçıvanın işğaldan azad edilmiş Günnüt kəndində ordumuzun qazandığı şanlı zəfəri tamaşaçıya çatdırmaq oldu. O anda yaşadığım sevinc, fərəh, qürur hissləri həyatımın ən gözəl anları idi. Həmin il Prezident cənab İlham Əliyevin sərəncamı ilə Azərbaycan kinematoqrafiyasının inkişafındakı xidmətlərimə görə “Tərəqqi” medalı ilə təltif edildim. Düşünürəm ki, bu çalışdığım Naxçıvan Dövlət Televiziyası kollektivinin əməyinə verilən yüksək qiymətdir.

Muxtar respublikanı təmsil edən bir media nümayəndəsi kimi, bundan sonra da müasir Naxçıvanı layiqincə təbliğ etməyə çalışacağam.

***Naxçıvan Şəhər İcra Hakimiyyətinin orqanı olan “Nuh yurdu” qəzetinin redaktoru, şair-publisist Qafar Qərib*** ixtisasca müəllim olsa da, ömrünü mətbuata bağlayıb. 2005-ci ildə AMEA Naxçıvan Bölməsində yaradılan “Tusi” nəşriyyatına baş redaktor kimi dəvət olunub, 2006-cı ildə nəşriyyatın direktoru təyin edilib. Uzun illər bu nəşriyyatda işıq üzü görən “Xəbərlər” jurnalının və digər elmi nəşrlərin yüksək səviyyədə çap olunmasında onun da əməyi vardır:



– Dörd il “Tusi” nəşriyyatında çalışdıqdan sonra – 2009-cu ildə “Nuh yurdu” qəzetinin redaktoru vəzifəsi mənə həvalə edilib. Artıq on bir ildir ki, redaktor kimi bu mətbu orqanın məsuliyyətini çiyinlərimdə daşıyıram. Çalışıram ki, qəzet Nuh yurdunun bu gününə, keçmişinə, mədəniyyətinə, ictimai-siyasi həyatına işıq tuta bilsin. Qəzet özündə qədim və şanlı tarixinin izlərini yaşadan Naxçıvan şəhərində, Nuhun yurdunda aparılan genişmiqyaslı inkişafı, quruculuq sahəsində görülən işləri işıqlandırmaq, Naxçıvan ziyalılarını, söz-sənət adamlarını oxuculara tanıtmaq kimi bir missiyanı yerinə yetirir, öz dəstxəti, yazı üslubu ilə seçilir və oxunur.

1999-cu ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüyəm. 2000-ci ildə Prezident təqaüdünə layiq görülmüşəm. Dəfələrlə hər iki sahədə – həm ədəbi, həm də publisistika sahəsində onlarla mükafat, diplom və fəxri fərmanlara layiq görülmüşəm. Milli mətbuatın 140 illiyi münasibətilə “Tərəqqi” medalı ilə təltif edilmişəm. 2019-cu ildən Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədri yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun Müşahidə şurasının üzvü olmağım jurnalistlik fəaliyyətimdə üzərimə ikiqat məsuliyyət qoyur. Buna görə də bütün yaradıcı qüvvəmlə müasir tələblərə cavab verən nümunəvi qəzet nəşrinə çalışıram.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin müdiri Səadət Əliyeva*** Naxçıvan Dövlət Universitetində bakalavr və magistratura pillələrində təhsil alıb. Jurnalistika sahəsində fəaliyyətini “Yeni fikir” qəzetinin redaktoru, Jurnalistika və kitabxanaçılıq kafedrasının müəllimi kimi davam etdirib. 2017-ci ildən Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin müdiri vəzifəsində çalışır:



– Bu gün Naxçıvan Dövlət Universitetində Jurnalistika ixtisası üzrə yüksəksəviyyəli kadr hazırlığı aparılır. Müasir texnoloji vasitələrlə təmin olunmuş Media mərkəzi isə ali təhsil ocağının fəaliyyətinin təbliği işinə öz layiqli töhfəsini verir. Ulu öndərimiz Heydər Əliyev deyirdi: ***“Mətbuat cəmiyyətin güzgüsüdür”.*** Bu, əvvəl də belə idi, müasir dövrdə də belədir. Mən deyərdim ki, Naxçıvan mətbuatı Azərbaycan mətbuatı fonunda özünəməxsus cəhətləri ilə formalaşan əsl mətbuat nümunəsi, xüsusi jurnalistika məktəbidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun media orqanlarına göstərdiyi yüksək qayğı və dəstəyin nəticəsidir ki, muxtar respublikamızda jurnalistika ənənələrinə sadiq, peşəkar mətbuat formalaşıb.

***“Şərqin səhəri” qəzetinin redaktoru Muxtar Rzazadə*** 2016-cı ildən Babək Rayon İcra Hakimiyyətinin orqanı olan “Şərqin səhəri” qəzetinin redaktoru vəzifəsində çalışır:



– Naxçıvan Dövlət Universitetində Jurnalistika ixtisasının fəaliyyətə başlaması uzaq gələcəyə hesablanmış bir addım idi. Bu gün mənim kimi, həmin ixtisasın məzunu olan onlarla jurnalist muxtar respublikanın kütləvi informasiya vasitələrində fəaliyyət göstərirlər. Bu, bir reallıqdır ki, qəzet çıxarmaq arzusunda olan istənilən redaksiya kollektivinin fundamental jurnalistika biliyi, bacarığı olsa da belə, müasir nəşriyyat, eləcə də digər zəruri infrastruktur olmasa, bu, elə arzu kimi də qalacaqdır. Bu gün muxtar respublikada çap olunan qəzetlər yüksək poliqrafik keyfiyyətlə və rəngli formada nəşrə hazırlanır. “Şərqin səhəri” qəzeti üçün ən müasir iş şəraiti yaradılıb, redaksiyanın balansına yeni avadanlıqlar, o cümlədən müasir fotoaparat dəsti verilib. Bu şəraitin müqabilində bundan sonra da rayonun ictimai-siyasi güzgüsü olacaq bir mətbu orqanın yüksək səviyyədə nəşrinə çalışacağıq.

***Səriyyə Almәmmədova:*** – Ulu öndərimiz Heydər Əliyevin Azərbaycanda ali hakimiyyətə gəlişinin 35-ci ildönümünün şərəfinə yaradılan “Kanal 35” televiziyası, o cümlədən onunla yanaşı, fəaliyyət göstərən “Naxçıvanın səsi” radiosu öz fəaliyyətini dövlətçilik, vətənpərvərlik, millilik kimi amillər üzərində qurub. Onu deyim ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq Sərəncamı ilə Televiziya və Radio Verilişləri Redaksiyasının yenidən qurulması məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun tabeliyinə verilib ki, bu da redaksiyanın nəzdindəki “Kanal 35” televiziyası və “Naxçıvanın səsi” radiosunun fəaliyyətində yeni inkişaf mərhələsinin əsasını qoyub. Bu gün Naxçıvanda medianın inkişafı üçün yaradılan sərait, göstərilən diqqət peşəkarlarla yanaşı, biz gənclərin də fəaliyyətinə müsbət təsir edir. Peşəkarlaşmaq istiqamətində atdığımız hər addımda göstərilən dövlət dəstəyini hiss edirik. Bir çox müsabiqələrdə iştirak etmişəm. Bütün bunlar isə təcrübəmi artırmaq, yazmaq bacarığını yaxşılaşdırmaq kimi şəxsi inkişafımda xeyli rol oynayıb. Bundan sonra öz üzərimdə çalışmaqla jurnalist peşəkarlığımı artırmağa səy göstərəcəyəm.



***Nəzmiyyə Məmmədova*** muxtar respublikada 2015-ci ildən fəaliyyət göstərən, müstəqil informasiya təminatı həyata keçirən ilk özəl onlayn media qurumu olan *naxcıvanxeberleri.com* xəbər portalında 2 ildir ki, müxbir vəzifəsində çalışır:



– Uşaqlıqdan mediaya marağım bu saytda fəaliyyətə başlamağıma vəsilə olub. İşimə vurğunluğum, əzmim, zəhmətim nəticəsində çalışdığım müddətdə 3 dəfə mükafatlandırılmışam, 2020-ci il 2 fevral – Gənclər Günündə isə “İlin gənc jurnalisti” nominasiyasının qalibi kimi təltif olunmuşam. Bu etimadı daha böyük yaradıcılıq uğurlarımla doğrultmağa çalışacağam.

***Səkinə Mirzəyeva – “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyinin əməkdaşı:***

– Bu gün doğma Naxçıvanımızda bütün sahələrdə əldə olunan inkişaf mətbuatı da əhatə edib. Əvvəllər mətbəəmizdə çap edilən məhsullar primitiv alınır, oxucu tələbini, demək olar ki, ödəmirdi. Köhnə, istismar müddətini başa vurmuş maşınlarda çap nümunələri də keyfiyyətsiz alınırdı. Müstəqillik illərinin bəhrəsi kimi 2010-cu ildən “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyinin yeni binada fəaliyyətə başlaması dövlət qayğısının parlaq təzahürüdür. Bütün bunlarla yanaşı, hər zaman əməyimizə də yüksək qiymət verilir. 2015-ci ildə “Rəşadətli əməyə görə” nişanı ilə təltif olunmağım da buna bariz nümunədir.



*Milli mətbuatımızın 145 illik yubileyi ərəfəsində qələmi ilə birliyimizi, vətənpərvərliyimizi, milli-mənəvi dəyərlərimizi təbliğ edən həmkarlarımıza bu çətin, çətin olduğu qədər də şərəfli və məsuliyyətli peşələrində uğurlar arzu edirəm.*

**✍ Ramiyyə ƏKBƏROVA**
**✍ Pərviz HACILI**
**✍ Güntac ŞAHMƏMMƏDLİ**
**✍ Türkan HÜSEYNLİ**

## Naxçıvan Muxtar Respublikası üzrə 20 iyul 2020-ci il tarixə taxıl biçininin gedişinə dair məlumat

| S/№ | Şəhər və rayonlar | Biçiləcək taxıl sahəsi (hektar) | Biçilən taxıl sahəsi (hektar) | Məhsul istehsalı (ton) | Məhsuldarlıq (sentner/ hektar) |
|---|---|---|---|---|---|
| 1. | Naxçıvan şəhəri | 1028 | 1028 | 3014 | 29,3 |
| 2. | Şərur rayonu | 4865 | 4822 | 18966 | 39,3 |
| 3. | Babək rayonu | 11767 | 11243 | 35755 | 31,8 |
| 4. | Ordubad rayonu | 1804 | 1804 | 5135 | 28,5 |
| 5. | Culfa rayonu | 7589 | 6968 | 18296 | 26,3 |
| 6. | Kəngərli rayonu | 5906 | 5804 | 17289 | 29,8 |
| 7. | Şahbuz rayonu | 1563 | 860 | 2359 | 27,4 |
| 8. | Sədərək rayonu | 2357 | 2357 | 8591 | 36,4 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **36879** | **34886** | **109405** | **31,4** |

## Naxçıvanın ilk çimərlik futbolu meydançası istifadəyə hazırdır

***Naxçıvan Muxtar Respublikasında idmanın maddi-texniki bazasının gücləndirilməsi ilə bağlı icra olunan uğurlu layihələrdən biri də çimərlik futbolu ilə bağlıdır. Belə ki, ötən ayın 18-dən etibarən Uzunoba gölünün ərazisində inşasına başlanılan çimərlik futbolu meydançası artıq hazır vəziyyətə gətirilib.***

İnşaat işləri Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi və Naxçıvan Futbol Federasiyasının nəzarəti ilə icra olunub. Beynəlxalq standartlara uyğun layihələndirilən meydançanın ümumi sahəsi 1200 kvadratmetrdir. Oyun sahəsinin uzunluğu 36, eni isə 26 metrdir. Qum örtüyü üçün narın qumdan (420 kubmetr) istifadə olunub. Meydançanın kənarlarına bordür düzülüb, 2 ehtiyat oyunçular skamyası, eni 5,50, hündürlüyü 2,20 metr olan oyun qapıları quraşdırılıb, bölücü xətlər üçün möhkəm materialdan lent çəkilib. Oyun ərazisinin kənarlarına ilk muxtar respublika çempionatının təşkilatçıları və sponsorlarına aid tanıtım lövhələri düzülüb.



Məlumat üçün bildirək ki, Naxçıvanla yanaşı, ölkəmizdə yalnız Bakı, Sumqayıt, Mingəçevir və Astarada çimərlik futbolu meydançaları mövcuddur.

Xatırladaq ki, iyulun 19-dan etibarən çimərlik futbolu üzrə Naxçıvan Muxtar Respublika çempionatına qatılacaq komandaların onlayn qeydiyyatına başlanılıb. 25 iyulda yekunlaşacaq qeydiyyat prosesindən 3 gün sonra püşkatma keçiriləcək. Avqustun 1-də çempionat start götürəcək.

**✍ Ceyhun MƏMMƏDOV**

***İtmişdir***

Mahmudov Məhəmmədəli Əşrəf oğlunun adına olan hərbi və sürücülük vəsiqələri itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Nail Əsgərov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 530